# 2020-2021-ci dərs ilində dövlət ümumtəhsil məktəblərində inklüziv məktəbəhazırlıq qruplarının təşkili barədə

## *Azərbaycan Respublikası Təhsil nazirinin əmri*

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi və Təhsil Nazirliyinin 2020-ci il üçün İş Planının “İnklüziv təhsilin təşkili vəziyyətinin öyrənilməsi və əhatə dairəsinin genişləndirilməsi ilə bağlı təkliflərin hazırlanması” fəaliyyətinin yerinə yetirilməsini təmin etmək məqsədilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq **əmr edirəm:**

**1.** Bakı Şəhəri üzrə Təhsil İdarəsinə (R.Tağıyev) tapşırılsın:

1.1. Pilot təhsil müəssisələrində - Bakı şəhəri 138, 202 nömrəli tam orta məktəblərdə, 220 və 252 nömrəli məktəb-liseydə inklüziv məktəbəhazırlıq qruplarının təşkil olunmasını təmin etsin.

1.2. Bakı şəhər psixoloji-tibbi-pedaqoji komissiyasının qərarına əsasən, ərazi üzrə sağlamlıq imkanları məhdud uşaqların məktəbəhazırlıq qruplarına göndərilməsini təmin etsin.

1.3. Məktəbəhazırlıq qruplarına loqopedik xidmətin göstərilməsini təmin etsin.

**2.** Azərbaycan Respublikasının Təhsil İnstitutu (E.Əmrullayev) pilot təhsil müəssisəsində inklüziv məktəbəhazırlıq qruplarında təhsilin təşkilinə metodikköməkliyin göstərilməsini təmin etsin.

**3.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə edilsin.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*6 may 2020-ci il*
*F-216*